# TÜRK ADIMIZIN QÜRURU

## *Sabir Rüstəmxanlının milli kimliyimiz uğrunda mübarizəsi*



*Şəddat CƏFƏROV,*
**iqtisadiyyat elmləri üzrə fəlsəfə doktoru, Azərbaycan və Rusiya Yazıçılar və Jurnalistlər Birliklərinin üzvü, Beynəlxalq Yazarlar Birliyinin üzvü**

*Əvvəli ötən sayımızda*

S.Rüstəmxanlı türkçülükdə və çağdaşlıqda düşüncənin mənəvi istinadı kimi görkəmli ictimaisiyasi xadimlərin fikir və düşüncələrinə əsaslanır. Onun qeydlərində biz Ə.Hüseynzadənin, Ə.Ağaoğlunun, eləcə də, C.Məmmədquluzadə və M.Ə.Rəsulzadənin adlarına rast gəlirik. Görkəmli sənətkar bu adları sadəcə çəkmir, onların mübarizə yolunda əsas istinadlarını qabarıq olaraq diqqətə çatdırır. Xüsusilə Mirzə Cəlilin məşhur "Azərbaycan" məqaləsi yada düşür.

S.Rüstəmxanlı doğru olaraq qeyd edir ki, Azərbaycanda yaşayan çoxmillətli xalqlar birliyi ümumazərbaycan mədəniyyəti və Azərbaycan dili əsasında qırılmaz güc mənbəyinə çevrilə bilər.

S.Rüstəmxanlı müasir sivilizasiyanın inkişaf istiqamətlərini yaxşı bilir. Xalqların taleyində dünyəvi bilgilərin hansı rola malik olduğunu çox yaxşı dərk edir. Elə ona görə də xalqımızın mənəvi istinadı kimi çağdaş düşüncədən qidalanmanı da vacib hesab edir.

Bir sözlə, bayrağımızda əks olunan İslami istinad məsələsi də S.Rüstəmxanlının qeyd etdiyi kimi mühüm əhəmiyyət kəsb edir. Əlbəttə, Sabir dinə əsaslanaraq xalqların etnik ruhunu qırmaq cəhdində inad göstərənləri də sərt tənqid edir. Göstərir ki, hər bir xalq özünün etnik mənsubiyyəti ilə fəxr etməli və özünün kimliyini məhz bu əsasda dərk etməlidir. S.Rüstəmxanlı yazır: *"Təəssüf ki, həm dinimiz, həm qurduğumuz dövlətlər, həm tərkibində olduğumuz imperatorluqlar yüz illər boyu Azərbaycantürk ideyasını unutdurmağa, bu ruhu öldürməyə səfərbər olmuşlar. İslam "qardaşlığı" etnik özünüdərkə qarşı, ümmətçilikulusalçılığa qarşı, Quran dili Allahın verdiyi ana dilinə qarşı, Fars "şirinliyi" türk hünərinə qarşı, İran şiəçiliyi inanc və millət bütövlüyünə qarşı, əzənlərin zorakılığı əzilənlərin xoşgörüsünə qarşı, riyakar,vətənsiz, hiyləgər yalanAzərbaycan saflığına qarşı... Tarixdən bu dediklərimlə bağlı adamın içini parçalayan çox sayda acı örnəklər göstərmək olar. Uzağa getmək lazım deyil, son yüzildə Arazın quzeyində və güneyindəki gedişata baxaq. Bəzi sadəlövh tarixçilərimiz elə düşünürlər ki, Azərbaycanın quzeyindəki müstəqil dövlətimizi Rusiyanın işğalına borcluyuq. Sən də iddia edirsən ki, ruslar bu ölkəyə mədəniyyət gətirdi. Sanki biz yüz illər bu torpaqlarda böyük mədəniyyət qurmuş xalq deyilik, qulyabanı kimi meşələrdə dolaşırmışıq. Tam tərsinə, ruslar bir çox mədəniyyət dəyərlərini türklərlə qonşuluğa və uzun sürən təmaslara borcludurlar və mədəniyyət də təkcə teatrdan ibarət deyil. Ruslar gələnədək bütün Qafqazın ünsiyyət dili Azərbaycan türkcəsiydi. Düzdür, Quzey xanlıqlarının Rusiyaya birləşməsi və Avropaya açılan yollar azərbaycanlıların taleyində müəyyən iz buraxmış, maarifçiliyin, demokratiya axtarışlarının genişlənməsinə təsirsiz qalmamışdır. Lakın, həmin dövrdə başqa xalqlar da yerində saymırdılar, Rusiya ilə əlaqəsi olmayan xalqlar da inkişafdaydı".* Azərbaycanın tarixi məkan baxımından ərazisi milyon kvadrat kmlə ölçülən bir ölkə olsa da, günümüzə parçalanmalardan, kəsilmələrdən sonra az bir hissəsi dövlətçiliyimizin istinad yeri kimi dövrümüzə gəlib çatıb. Hətta bununla da barışmayan bədxahlarımız hər cür təxribatlarla ölkəmizin ərazilərinə iddialara rəvac vermək cəhdi göstərirlər.

Böyük imperatorluqdan sonra Azərbaycan xanlıqlara parçalandı. S.Rüstəmxanlı xanlıqlara parçalanmanın özünü də ürək ağrısı ilə xatırladır. Məlumdur ki, xanlar bir çox hallarda məhdud düşüncə ilə ancaq hakim olduqları ərazilər haqqında qayğılanır. Beləliklə, işğalçılar parçalanmış, gücsüz xanlıqlara bölünmüş ölkəni asanlıqla öz pəncələri altına ala bildilər.

Məlumdur ki, Rusiya Azərbaycanı işğal edəndən sonra özünün məramlarına uyğun idarəçilik qurumu yaradırdı. Hətta belə bir şəraitdə də S.Rüstəmxanlının qeyd etdiyi kimi Qafqazda əsas aparıcı dil Azərbaycan dili olaraq qalırdı. Əlbəttə, burada söhbət türk dilindən gedir. Bir sözlə, bu artıq yeni mərhələ idi. Rusiya ilə əlaqələr qurmuş olan digər xalqlar da inkişafdaydı. Bir sözlə, yeni mərhələdə maarifçilik yeni vüsət aldı. Seminariyanı bitirmiş olan yeni nəsil Azərbaycan ziyalıları ölkənin içərilərinə dağılaraq xalqı öz ziyaları ilə nurlandırmağa başlamışdılar.

Görkəmli mütəfəkkir olaraq S.Rüstəmxanlı Azərbaycanda yeni demokratik dövləti quran ziyalıların məhz yeni dövrün insanları olduğunu da göstərir. Onlar Rusiyada, Avropada oxuyub gəlmiş görkəmli şəxsiyyətlər idi. Onlar dövlətçilik təfəkkürü ilə silahlanmış insanlar idi. Türk ruhunu ən üstün istinad mənbəyi hesab edirdilər. Hətta Sovet dövründə türk ruhunu əsas istinad mənbəyi hesab edən ziyalılar Sibirə sürgün olunur, güllələnir, sıradan çıxarılırdı. Bütün bunların biz S.Rüstəmxanlının qeydlərinə sözün həqiqi mənasında necə can yangısı ilə ifadə olunduğunun şahidi oluruq: *"Bu, yüzlərlə, minlərlə fikir adamımızın qanı bahasına əldə edilmişdi və bu bölgənin Şirvanşahlar dönəmindən başlayan təbii potensialının nəticəsi idi. Quzey Azərbaycan aydınları öz ağıl və istedadları ilə bütün Rusiya müsəlmanlarının maariflənməsi və milli varlıqlarını dərk etməsinə yardım etmişdir. Bu gün həmin böyük insanlarımızın Əlibəy Hüseynzadə, Əhməd Ağaoğlu, Məhəmməd Əmin Rəsulzadə, Əlimərdan bəy Topçubaşı, Fətəli xan Xoyski, Nəsib bəy Usubbəyli, Cəlil Məmmədquluzadə, M.Ə.Sabir və adları hamıya bəlli olan digər böyük mütəfəkkirlərimizin keçdikləri, məşəqqətli həyat yollarını düşünəndə müstəqil dövlətimizin dəyərini daha yaxşı anlayırıq. Qısa müddətdə yetişmiş bu insanlar kölə durumuna salınmış bir millətin qanında mövcud olan böyük ruhu diriltdilər, lakin bolşevik Rusiyası bunu bağışlamadı və 1920ci ildən 50ci illərə qədər yüzminlərlə Azərbaycan aydını vəhşicəsinə qətl edildi. Təkcə Selevki əsirləri haqqında yazılanları, yaxud Hüseyn Cavidlə bərabər Sibirdə əsir olan bir dəstə Azərbaycan türkünün qəhrəmanlığını əks etdirən "Onlar türklərdi" kitabını xatırlamaq yetərlidir ki, həmin ruhun qeyriadi dərəcədə yüksəkliyini, əyilməzliyini, ölmədiyini görək. O dövrlərdə baş verən faciələr millətimizin düşünən beyinlərinin necə planlı şəkildə və ardıcıl məhv edildiyini də göstərir. Bu mənada çarizmin və fars rejiminin siyasətləri çox bənzərdir. Son yüzildə düşmənlərimizin apardığı savaşların və siyasətin mahiyyəti aşkardır: ya Azərbaycan türklərini bir xalq olaraq yer üzündən silmək, ya da pozub, qanını və ruhunu dəyişib simasız bir sürüyə çevirmək. Məhz bu məqsədlə tarixi mövzulu əsərlərimiz min cür maneə ilə qarşılanırdı, hətta Dədə Qorqud boylarının nəşri və oxunması qadağan edilmişdi: Əhməd Cavadın, Hüseyn Cavidin, Mikayıl Müşfiqin, hətta Nəriman Nərimanovun adını çəkmək və kitablarını nəşr etmək olmazdı. Maraqlıdır ki, bu gün də orta məktəb proqramlarında hər cür köhnəlmiş, mənasız söz yığınına yer var, müstəqillik ruhuna qida vermiş, yüksək bədii pafoslu, milli qeyrətli, uşaqların heysiyyətli böyüməsinə kömək edəcək əsərlər az xatırlanır".* Bu qeydləri oxuyarkən Sabirin türk ruhuna güvənən ziyalılara necə rəğbətlə yanaşmasını gördükdə onun mənən nə qədər böyük insan olduğunu bir daha məmnunluqla seyr etdim. Biz bütün hallarda Azərbaycan adlı dövlətin məhz türk ruhuna güvənərək güc kəsb etməsini bir an da olsun unutmamalıyıq.



Müstəqilliyimizin bərpasından sonra Azərbaycanın bir çox çətinliklərinin həllində Türkiyənin necə böyük rol oynadığını da bir daha yada salıram. Mən çap sahəsi üzrə mütəxəssisəm, poliqrafam. Həmin dövrdə Rusiya ilə iqtisadi əlaqələr demək olar ki, qırılmışdı. Yeni poliqrafiya texnologiyasını Azərbaycana gətirmək çox çətin idi. Bu zaman Türkiyə bizə qucaq açdı. Mən məmnunluqla qeyd edirəm ki, S.Rüstəmxanlının bu əvəzsiz məktubları tariximiz üçün çox böyük dəyər kəsb edir.

S.Rüstəmxanlı 10cu məktubunda sanki sonuncu olaraq qeyd edir ki, biz türk birliyinə nail olmaqla dünya xalqlarının sırasında özümüzün möhtəşəm yerimizi tuta bilərik. Əlbəttə, Sovet dövründə türk birliyinə mane olan amillər güclü idi. Ancaq indi bu maneələr formasını, metodunu dəyişsə də, başqa şəkildə yenə qalır. Amma biz Avropa Birliyinə bənzər türk birliyini yaratmaqla həm təhlükəsizliyimizi təmin edərik, həm də sürətli inkişaf yolu seçərik.

**(Davamı 11-ci səhifədə)**

# TÜRK ADIMIZIN QÜRURU

## Sabir Rüstəmxanlının milli kimliyimiz uğrunda mübarizəsi

*(Əvvəli 10-cu səhifədə)*

Eyni zamanda mənəvi dəyərlərimizin də qorunub saxlanılmasına nail ola bilərik: *“Türk xalqlarında assimilyasiyaya meylin güclü olduğunu nəzərə alsaq Azərbaycanda və Mərkəzi Asiyada türklərə qarşı yeni işğalçılıq siyasətinin başında beynəlxalq sərmayənin dayana biləcəyindən ehtiyatlanmalıyıq. Bununla belə, bu sərmayənin milli buryuaziyanı və nəticədə, milli dirənişi gücləndirməsi də qaçılmazdır və yeni imkanlar açır. Millətin mənliyi onun dövləti ilə qorunur. Yeni yaranan türk dövlətləri öz birliklərini gücləndirməklə həm də dövlətlərini gücləndirəcəklər. Bu işdə milli psixologiya nəzərə alınmalıdır. Dünya tarixində ayrıca bir türk formasiyası da olub. Öz böyüklüyümüzü bilməyincə, tariximizi, mədəniyyətimizi öyrənməyincə, özümüzə sənin kimi aşağılayıcı bir gözlə baxdıqca fəlakətlər bizi izləyəcək. Bu gün türk dövlətlərinin zirvə toplantılarının qərarlarında bizim vaxtilə yazdığımız və Uluslararası Türk dünyası konfranslarında Türkiyədə, ABŞda dediyimiz bir sira ideya və təkliflər öz əksini tapıb. Nəzərdə tutulan layihələrin həyata keçirilməsi üçün real mexanizmlər qurulmalıdır. Avroasiya deyilən ideyanın mərkəzində Türk dünyası dayanmalıdır. Bu bölgədə rus, çin, fars iddialarını susdurmaq, tarixi ədaləti bərpa etmək və dəngələri qorumaq üçün Avropa Birliyinə bənzər Türk birliyinin qurulmasının vaxtı çatmışdır. Türk aləminin zəngin sərvəti, böyük insan ehtiyatları, yaşamaq üçün gözəl şəraiti imperialist güclərə dinclik vermir. Sovetlərin necə yerə böldüyü Türküstan 2530 ildə birləşmək, yaxınlaşmaq istiqamətində uzun məsafə qət edə bilməmişdir. Burada qurulan dörd türk dövləti arasında süni surətdə yaradılmış konfliktlər onların inteqrasinə əngəl törədir və köhnə SSRİ xiffətini gücləndirir, İran cənubdan, Çin şərqdən öz nüfuzunu bu bölgədə yaymağa can atır. Bütün bu cəhdlərin, əzələ nümayişlərinin tək cavabi Türk birliyinin qurulmasıdır. Belə bir birliyin işlək mexanizmlərinin yaradılması ləngiyir. Türk məmləkətlərinin kültür siyasəti hazırlanmalıdır. Hansı ölkə hansı mədəniyyət sahəsini daha yaxşı qoruyursa o sahənin mərkəzinə çevrilməlidir. Türk respublikalarında bu sahələrdə görülən işlər ümumiləşdirilməli və əlaqələndirilməlidir”.*

Əlbəttə, S.Rüstəmxanlı bu qeydlərin sonunda bir sıra maraqlı təkliflər də verir. Həmin təkliflərin bir çoxunu burada birərbirər xatırlatmaq olardı. O, burada ortaq dil mərkəzinin yaradılmasından danışır, türk ensiklopediyasının dərcini vacib hesab edir. Şərqdə və qərbdə türk mədəniyyətinin izlərini öyrənməyi vacib sanır. Əlbəttə, onun daha maraqlı təklifləri də var. Türk dövlətlərinin məktəbləri üçün vahid tarix, ədəbiyyat, coğrafiya dərslikləri yaratmağı da təklif edir. Əlbəttə, bunların hamısı çox sürətlə başa gələn deyil. Amma hər halda türk birliyinin yaradılmasında bütün bunların xüsusi yeri və əhəmiyyəti var.

Sabir Rüstəmxanlının “Milli taleyimiz və biz” kitabında son söz əvəzi qeydləri də xüsusi maraq doğurur. Mən bir məqamı müşahidə etdim. Sabir Rüstəmxanlı məktublarının əvvəlində G.Gəncalpa “əzizim” deyə müraciət edirdi. Sonra özünəxas yazı mədəniyyətini qoruyaraq, hörmətsizlik etmədən onun əsl təbiətini açıb göstərən fikirlərindən də çəkinmədi və axıra qədər öz fikirlərini çatdırdı.

Məni çox razı salan məqamlardan biri də bundan ibarətdir ki, S.Rüstəmxanlı Azərbaycan xalqının tarixinə xor baxan bu məxluqu kifayət qədər hər kəsə tanıda bildi. Onun Səttar xana, Xiyabaniyə, Pişəvəriyə, xüsusilə Babəkə münasibətini elə həssaslıqla göstərdi ki, hər kəsə Gəncalpın siması məlum oldu.

Babəkin türklüyünün mübahisə doğurmadığını qeyd etməklə insanların arasına şübhə toxumu səpən mənfurların çürük düşüncələrini darmadağın etdi.




* * *

Sabir təbiətən elə yaradıcı ədəbiyyat adamıdır ki, uzun illər ərzində yazmaqdan, yaratmaqdan yorulmayıb. Onun ictimai həyatımızdakı fəal vətəndaş mövqeyini, siyasi çevikliyini də şəxsiyyətinin əsas məziyyətlərindən biri kimi qəbul etsək, onu XX-XXI əsr ədəbi-siyasi mühitimizin fenomenlərindən biri kimi qəbul etməyə heç nə mane olmaz. Həyat dəyişdikcə cəmiyyətdən tələb olunanı Sabir Rüstəmxanlı çevik düşüncəsi ilə vaxtında duyur. Elə vaxtında da dəyərli düşüncələri, insanların ruhuna sirayət edən yazıları ilə bu mənəvi tələbatı ödəməyə çalışır.

Azərbaycanın müstəqillik düşüncəsinin bütün qabarıqlığı ilə meydana çıxdığı Sovetlərin çöküşü zamanından üzü bəri Sabir Rüstəmxanlı istiqlal tariximizi sanki təzədən ədəbi düşüncəyə gətirmək yolu tutdu. Əlbəttə, birinci növbədə dəyərli publisistikası ilə.

Sabir Rüstəmxanlı “Cavad xan” tarixi romanını, “Difai” əsərini cəmiyyətin mənəvi tələbatına uyğun olaraq çox vaxtında və məqamında yazdı. Bizim ədəbi-mənəvi mühitimizin bu mərhələsini öz əsərləri ilə bəzədi desək, yerinə düşərdi.

Sabir Rüstəmxanlının “Difai” romanında erməni terroruna qarşı mübarizədə qüvvələrin səfərbər olunması naminə Əhməd bəy Ağaoğlu kimi liderlərin siyasi təşkilatçılıq fəaliyyəti tariximizin çox maraqlı səhifələri kimi bu əsərdə əks olunur.

Burada Sabir Rüstəmxanlının digər dəyərli əsərlərinin də adlarını çəkmək olar. Amma bizim məqsədimiz sənətkarın ədəbi publisistikasında Azərbaycan xalqının mənəvi qürur mənbəyi kimi milli ruhunu necə tərənnüm etdiyini göstərməkdir.

Sabir Rüstəmxanlı ötən əsrin 80-ci illərinin axırlarından başlayaraq siyasi prosesləri çox diqqətlə izləyirdi. Ona görə də xalqı düzgün istiqamətləndirmək üçün dövrün ən mübariz, ən dəyərli qəzeti kimi “Azərbaycan”ı araya-ərsəyə gətirdi. Maraqlıdır ki, Sabir Rüstəmxanlı həmin qəzetdə dərc olunmuş yazılarını mübarizə tariximizin dərsliyi kimi təqdim edirdi. Onu da qeyd edim ki, sənətkar “Bu sənin xalqındır” adı ilə çap etdirdiyi kitabına həmin dövrdə yazdığı məqalələri toplayıb. Özü də həmin kitabın elə başlanğıcındaca qeyd edib ki, bu ədəbi abidəni Azərbaycanın azadlığı uğrunda canını qurban vermiş dostlarımızın əziz xatirəsinə ithaf edirəm. Kifayət qədər dəyərli təsdiqdir. Sabir Azərbaycanın istiqlalı uğrunda mübarizənin ön sıralarında olub. Həmin dövrdə gənclərin hərəkata necə sidq və sədaqətlə qoşulduğunu yaxşı görürdü. Ona görə də onun düşüncəsində bu mübarizədə iştirak etmək əsl müqəddəslik missiyası kimi dərk olunur.

Sabir Rütəmxanlı kəskin və aydın düşüncə yazıları ilə xalqın mübarizəsinə biganə olanlara sərt və aydın məntiqlə bildirirdi ki, haqqı tapdanan bu xalq sənin xalqındır.

Sənətkarın bu mübariz motivli publisistik əsərləri zaman keçsə də, heç vaxt dəyərini itirməyəcək. Maraqlıdır ki, o, mübarizə yoldaşlarına çatdırırdı ki, əsas güc mənbəyi xalqdır, xalqa güvənənlər son nəticədə qalibdirlər. Elə ona görə də dayaq nöqtəsi xalqdır – deyirdi.

Həmin dövrün hadisələrinin şahidləri baş verənləri heç vaxt unuda bilməz. İndiki yaşlı nəsil o övrün şahidləridir. Biz görürdük ki, xalqın taleyi necə təhlükələrlə üzləşməkdədir. Sabir Rüstəmxanlı da bu təhlükəni görürdü. Ona görə də növbəti mübariz yazılarından birini “Uçurumun kənarında” adlandırırdı. Əslində S.Rüstəmxanlı bu tipli yazıları ilə cəmiyyəti kütləyə çevirib onu öz məqsədlərinə tabe etmək istəyənlərə xəbərdarlıq edirdi. Sənətkar bütün varlığı ilə vətənin və xalqın taleyini düşünürdü.

“Bu sənin xalqındır” publisistik kitabı bir neçə fəsildən ibarətdir. Birinci bölmə “Azərbaycan”ın harayı”



adlanır. Burada, əlbəttə, söhbət onun yaratdığı və həm də müəllifi olduğu “Azərbaycan” qəzetindən gedir. Əslində bu haray elə həm də onun özünün harayıdır.

İkinci bölmə “Meydana gələn yollar” adlanır. O dövrü xatırlayan hər kəs yaxşı bilir ki, meydana hərə bir cür düşüncə ilə gəlirdi. Adamlar şəxsi mənafe də güdürdülər, bütün varlığı ilə xalqın taleyini düşünənlər də az deyildi. Bütün bunların təzadlı bir mənzərə yaratdığını da təsəvvür etmək çətin deyil. S.Rütəmxanlı bütün bunları vaxtında görür və duyurdu.

Növbəti fəsil “Özümüzdən böyük sözümüz” adı ilə çox dəyərli publisistik yazıları özündə ehtiva edir. Burada Sabir Rüstəmxanlı “Demokratik hərəkat və ədəbiyyatımız”, “Gecə işıqlar yanar”, “Gücümüz və qüdrətimiz” adlı bölümlər təqdim edir. Sonrakı bölmələr “Dirilən yaddaşımız”, “Gündoğandan günbatana” və “Azərbaycan adına” adlanır. Milli hərəkatımızda S.Rüstəmxanlının yerini daha aydın görmək üçün gələcək nəsillərə “Bu sənin xalqındır” adlı kitabı yaxşı-yaxşı oxumaq və yaddaş mənbəyi kimi qoruyub saxlamaq bir mənəvi borcdur.

Mən Sabirin sağlam mənəvi mövqeyi ilə fəxr edirəm. O, görkəmli dövlətçi babalarımızın layaqətli varisidir.

**25.04.2024**